# “Altmışıncılar nəsrinin poetikası”




Bakı Dövlət Universitetinin Milli mətbuat tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Cahangir Məmmədlinin yenicə çapdan çıxmış “Altmışıncılar nəsrinin poetikası” kitabı Azərbaycan ədəbiyyatında mühüm bir mərhələnin - 1960-1990-cı illər dövrünün bədii nəsrinin, xüsusilə də povest janrının elmi-nəzəri baxımdan dərin təhlilinə həsr olunmuş əhəmiyyətli tədqiqat əsəridir. Tədqiqat əsəri dörd fəsildən ibarətdir. Həmin fəsillərin hər birində altmışıncıların yaradıcılığı, xüsusilə povest yaradıcılığı geniş və müxtəlif aspektlərdən tədqiq olunub.

BDU-da adı qeyd olunan kafedranın elmlər doktoru proqramı üzrə doktorantı olduğumdan bu kitabı böyük həvəslə oxumuşam. Müəllif monoqrafiyada “altmışıncılar” kimi tanınan ədəbi nəslin yaranmasını, inkişaf yollarını, bədii-estetik prinsiplərini və Azərbaycan nəsrinə gətirdikləri yenilikləri sistemli şəkildə araşdırır və “altmışıncılar” anlayışını dövrün ictimai, mədəni və estetik reallıqları kontekstində verir.

Professor Cahangir Məmmədli yazdığı kitabda ədəbi-tarixi və poetik analiz metodlarından istifadə edərək, dövrün povestlərini yüksək səviyyədə sosial-mədəni kontekstdə təhlilini verib.

Qeyd etməliyik ki, professorun bu əsəri yalnız ədəbi tənqid və elmi araşdırma üçün deyil, həm də Azərbaycan ədəbiyyatını öyrənən tələbə və müəllimlər üçün qiymətli bir mənbədir.

Nəfis tərtibatlı bu kitaba AMEA-nın müxbir üzvü Təhsin Mütəllibov və dosent Ələmdar Cabbarlı rəy veriblər. Akademik Nizami Cəfərov isə kitaba yazdığı “Ön söz”də qeyd edib ki, monoqrafiyanın indiki variantı bir sıra yeniliklərlə zənginləşdirilib və bu məqamda professor Cahangir Məmmədli “altmışıncılar” adlandırılan yazıçıların yaradıcılığına daha çox diqqət yetirib. İnanıram ki, monoqrafiyada müəllifin müstəqil mühakimələri, sərbəst təhlilləri, nəsrimizə, xüsusilə povest yaradıcılığına verdiyi qiymətləri, gəldiyi ümumi elmi-nəzəri nəticə ayrıca maraq doğuracaq. Əvvəlki kitabları və onlarla məqalələrində olduğu kimi, C.Məmmədli bu əsərini də ədəbiyyata məhəbbətlə, söz sənətinə inam və hörmətlə qələmə alıb.

Qeyd edək ki, Cahangir müəllim müsahibələrinin birində demişdir: “Ədəbiyyat mənə yazı üslubu, jurnalistika isə faktların dəqiq və obyektiv təqdim olunmasını öyrətdi”. Bəli, bu, onun ədəbiyyata verdiyi dəyərin, qiymətin və həm də tədqiqatçı kimi ədəbiyyata münasibətinin ən bariz nümunəsidir desək, yanılmarıq.

Ümidvaram ki, belə bir dəyərli nəşr təkcə mənim yox, xüsusilə ədəbiyyatı sevən hər kəsin stolüstü kitabı olacaq.

**Şakir CƏFƏROV,**
*filologiya üzrə fəlsəfə doktoru*

Azərbaycan müəllimi .- 2025.- 5 iyul (№24).- S.7.